# YERLİ İSTEHSALÇILARIN ŞTRİXKODA TƏLABATI ARTIR

***«Qlobal Standart 1 Beynəlxalq Sisteminin Təbliği» İctimai Birliyinin yeni üzvləri üçün təşkil etdiyi mütəmadi seminar-təqdimatlardan növbəti biri 8 sentyabr 2023-cü il tarixdə baş tutmuşdur. Tədbirdə müxtəlif istehlak məhsulları istehsal edən müəssisələrin və fərdi sahibkarların 20-yə yaxın nümayəndəsi iştirak etmişdir.***



Təqdimatda qoyulan əsas mövzular GS1 sistemi, məqsəd və vəzifələri, ştrixkodun həm yerli, həm də dünya bazarında tutduğu mövqe, GS1 standartları, onların düzgün tətbiqi haqqında olmuşdur.

Tədbir boyunca innovativ yeniliklər, həm Birliyin, həm də GS1 beynəlxalq təşkilatının gələcək perspektiv planları, dövlət qurumları ilə əlaqə müzakirə edilmişdir.

Tədbirdə iştirak edənlərin əksəriyyətinin fəaliyyətə yeni başladıqlarını nəzərə alaraq ştrixkodun tərtibatında diqqət etməli olduqları nüanslar xüsusi vurğulanmışdır. Anbar əməliyyatlarının asanlaşdırılması, sürətləndirilməsi üçün logistik kodlar və eləcə də, logistik etiketlər barədə məlumat verilmişdir.

GS1 beynəlxalq sisteminin artıq bir neçə müddətdir ki, istifadəyə verdiyi «Verified by GS1» axtarış platformu, həmin platformun imkanları və inteqrasiya zamanı rast gəlinən xətalar geniş müzakirə olunmuşdur. Belə ki, bir çox sahibkarda «Ştrixkodlarımın leqallığını necə yoxlaya bilərəm?» deyə yaranan sual məhz bu mövzuda işıqlandırılmışdır.

Bütün yerli GS1 təşkilatlarının sahibkarlara və onların məhsullarına ayrılan GS1 identifikatorlarını real vaxt rejimində bu platformda yenilənməsi həm istehsalçılar, brend sahibləri, distributorlar, həm də istehlakçıların məhsul məlumatlarına əlçatanlığını təmin edir.

Eyni zamanda, mobil telefonlardan istifadə etməklə də məlumat əldə etməyin mümkünlüyü qeyd edilmişdir. Bildirilmişdir ki, bu gün, «GS1 Azerbaijan AZE Barcode» mobil tətbiqi yerli mallar və onların istehsalçıları haqqında məlumat əldə etməyə imkan verir. Lakin, yaxın günlərdə bu mobil tətbiq yerli məlumat bazası ilə məhdudlaşmayacaq və «Verified by GS1» beynəlxalq axtarış sisteminin məlumatlarının inteqrasiyası sayəsində istənilən GS1 ölkə prefiksinə malik məhsul haqda informasiya əldə edilməsi asanlaşacaq.

Bu gün GS1 Azerbaijan məlumat bazasında 3000-dən çox sahibkarın 150 000-dək məhsuluna aid məlumatların öz əksini tapdığı bildirilmişdir. GS1-in 2022-ci ilin dünya üzrə yekun göstəricilərindən bəhs edilərkən isə artıq 2 milyondan çox istehsalçının 100 milyondan çox məhsulunun artıq GS1 identifikatorları ilə markalandığı vurğulanmışdır.

Seminar-təqdimatın sonunda İctimai Birliyin baş direktoru Vəfa Əliyev yeni istifadəçilərə GS1 Beynəlxalq Sistemində qeydiyyatdan keçdiklərini təsdiq edən Şəhadətnamə təqdim etmiş və xatirə şəkilləri çəkdirilmişdir.

***Gülanə RƏSULOVA***
**Əmtəə Nömrələmə Depozitariyası müdiri**



